# HESABAT...

Yaşayırıq ona görə ki, son sığınacağımız olacaq doğma Vətən torpağına borcumuzu ödəyək. Bu borc müqəddəs ana borcu kimidir. Bu borcu ödəmək, əvəzləmək mümkünsüzdür...Cəmi bir neçə il əvvələ nəzər salıram. 2000-ci ilin isti yayı. Yenicə təyin olunduğum vəzifədə qalımmı, qalmayımmı? Hara baxıram problem, hara baxıram həlli müşkül məsələlər.

Təmir-tikinti işləri aparmaq həvəsindəyəm.:. vəsait yoxdur. İnventar, avadanlıqlar almaq istəyirəm... vəsait çox cüzidir.

Rayon mərkəzi kitabxanasının yerləşdiyi binaya "əl gəzdirmək" istəyirik... bina başqa təşkilatın balansındadır. Uşaq kitabxanasına gedirəm... qaranlıq və darısqal bir otaq... bu da başqa təşkilatın binasında. Kənd mədəni-maarif müəssisələrinin hansının binasına əl vurmaq istəyirik...problem çıxır. Bu köhnə, uçuq-sökük binalara da əl vurmaq olmaz. Keçmiş kolxoz və sovxozların vəsaiti hesabına tikilən, illərlə təmiri yada düşməyən bu binalar da özgələrin balansındadır. Xırda bir təmir üçün kiməsə minnət etməli, icazə almalısan. Gəmidə oturub, gəmiçi ilə dava edəsi deyilsən ki?!...

Kitab rəflərinə nəzər salıram. Bütün kitablar kiril qrafikası ilə... Oxucu tələbatı ilə üz-üzə qalan kitabxanaçıların haqlı tələbləri ilə üz-üzə qalıram. Ürəyi cavan, sinni çox olan ictimai əsaslarla işləyən "katibəmin", ömrünün əlli ildən çoxunu mədəniyyət sahəsinə həsr etmiş Şəfiqə xanımın yazı makinasının çaqqıltısı qulaqlarımda səslənir. Mən latın qrafikası ilə yazıb verirəm, o isə kiril qrafikası ilə çap edir. Bu da bir problem... Sahə qəzetləri ilə əlaqə zəifdir, abunə kompaniyası aparılmayıb, kitabxanalar heç bir dövrü mətbuata abunə yazılmayıb.

Kompüter, sürətli elmi informasiyalar əsrində günlərlə yol gedən məktublar... Bir dəqiqəlik cavab üçün həftələrlə gözləməlisən. Tarixi abidələrimizlə bağlı problemləri də çözməklə qurtarmaq olmur. Ərazi mübahisəsi, ad göstəricisi yazılan lövhənin vurulmaması və s. Odur ki, hər şeyi yenidən başlamağı, yaxında və uzaqda olan mehriban dostları köməyə çağırmağı qərara aldım. Ətrafımda olan insanlarla – işçilərlə yeni ruhda işləməyi qərara aldım. Bütün işlərdə köməyim və arxam Heydər Əliyev ideyalarının işığı oldu. Böyük siyasətçinin bacarığı, dövlət xadiminin xalqa, vətənə bağlılığı, torpaq sevgisi bizlərə nümunə oldu. Dahi şəxsiyyətin, Ulu öndərin mədəniyyətimizə qayğısı problemləri əritdi, sahəni inkişaf etdirdi.

Bizə isə qaldı çalışmaq - əmək funksiyalarımızı, vəzifə borcumuzu icra etmək. Burda da köməyimizə çatanlar oldu. Sağ olsun, yaxşı adamlar. Sağ olsun Vətən, xalq qeyrəti, torpaq təşəbbüsü çəkən insanlar. Adlar sadalamaq fikrim yoxdur. Amma bu adamların sayı uzun bir siyahıdır. Onlar isə Heydərl Əliyev siyasətinə sadiq adamlar, mədəniyyətə bağlı nüfuzlu simalardır. yükür ki, onlar Vətənin iər yerində - pahtaxtda, rayonda- kəndlərdə, məhullələrdə... var.

Təzə töyin olunduğum üçün ilk növbədə binalarımızı şöbənin balansına almaq üçün müraciət etdim. Müsbət qarşılandı. Qısa zaman kəsiyində onlarla müəssisə rayon mədəniyyət şöbəsinin



# DÜŞÜNCƏLƏR...

Vaqif Alıyev,
Kürdəmir Rayon Mədəniyyət
və Turizm şöbəsinin müdiri



*Həyat su kimi axıb gedir, ömür karvanı addım-addım irəliləyir. Hər birimiz bu dünyada payımızı, qismətimizi yaşayırıq. Yaşayırıq ona görə ki, üstündə gəzdiyimiz, havasını udduğumuz, suyunu içdiyimiz Vətənə xidmət edək. Yaşayırıq ona görə ki, müqəddəs ana südü ilə canımıza hopmuş vətən sevgisinə sığınaq.*

balansına verildi. 1960-cı illərdən Su Təsərrüfat Nazirliyinin balansında olan Mərkəzi kitabxana binası "özümüzün oldu". Canı Vətən, torpaq sevgisindən yoğrulmuş, Kürdəmirdə qurub-yaradan tarixi sima kimi yaddaşlara hopmuş Musa Cəfərovun oğlu Rauf qardaşımız öz əmlakı olan geniş və işıqlı binanı əvəzsiz olaraq rayon uşaq kitabxanasının ixtiyarına verdi. Məmur süründürməçiliyi ilə üzləşsək də kürdəmirli uşaqlara nümunə olacaq bir vətənpərvərlik təşəbbüsünü alqışladıq. Binanı təmir etdik, uşaqların ixtiyarına verdik. İndi həmin binada kitabxananın nəzdində uşaq informasiya mərkəzi də fəaliyyət göstərir.

Çox qısa vaxt ərzində vəsait məsələmiz gündəmə çıxarıldı. Bu sahədə də irəliləyişlər oldu. Köhnə, çaqqıltısı divarı dəlib keçən yazı makinaları müasir kompüterlər, çap qurğuları ilə əvəz olundu. Rayon mədəniyyətimizin qayğıları ilə yaşayan rəhbərlər, maliyyəçi dostlarımız köməyimizə çatdılar. Çox sağ olsunlar.

Rayon Mərkəzi Kitabxanasını əsaslı təmir etməyə, rayon uşaq kitabxanasını yenidən qurmağa vəsait tapıldı. Adamlarda yeni ruh, yeni həvəs yarandı. Dam örtüyünün dəyişilməsindən, giriş qapısının təzələnməsinə qədər simasını dəyişən kitabxanalarda yeni həvəslə işləyən kitabxanaçı qızlarımız elə bil xasiyyətlərini dəyişdilər. Daha gülərüz, işgüzar oldular. Ölkə rəhbərliyinin qayğısı ilə latın qrafikası ilə çap olunaraq hədiyyə kimi kitabxanalara verilən çox qiymətli ədəbiyyatlar oxucu tələbatını ödəməyə imkan verdi. Daha tələbkar oxucunun qarşısında çıxılmaz qalmadıq. Nəyi istədilərsə onu tapıb verdik.

Elə həmin vaxtlarda mədəniyyətin ağrı – acısını gündəmə çıxaran, nöqsan və çatışmazlıqları obyektiv müzakirə mövzusuna yönəldən mədəniyyət işçilərinin ənənəvi zona müşavirələri keçirilməyə başladı. 2002-ci ildə Kürdəmirdə keçirilən zona müşavirəsi nöqsan və çatışmazlıqlarımızı bir daha təhlil etməyə, gələcək planlarımız haqqında götür – qoy etməyə imkan yaratdı. Ciddi müzakirələrdən sonra...

Kürdəmirdə Dövlət Rəsm Qalereyasının yaradılması ideyası ortaya çıxdı. Elə o vaxt mədəniyyət nazirinin müavini Ədalət Vəliyev qalereya yaradılması istiqamətində atılacaq hər bir addımın nazirlik tərəfindən dəstəklənəcəyini bildirdi və yaradılacaq rəsm qalereyasının ilk eksponatı olacaq "Nəsimi" portretini (müəllifi: Xanlarov K.A) mədəniyyət şöbəsinə hədiyyə etdi. Tezliklə bina tapıldı. İllərlə baxımsız qalmış, su təsərrüfatı sisteminin uçub-sökülmüş binası (əslində binanın qalıqları!) əvəzsiz olaraq mədəniyyət şöbəsinin balansına verildi. Həvəs və istək bütün çətinliklərə qalib gəldi. Maliyyəçi dostumuz (əslində mədəniyyətin dostu olan bir vətəndaş!) Kərəm Kərimovun yaxından köməyi ilə binanın təmiri üçün vəsait tapıldı. Qısa müddətdə müasir tələblərə cavab verən qalereya binası istifadəyə verildi. İndi Kürdəmir Dövlət Rəsm Qalereyası öz zəngin əsərləri ilə tamaşaçıların ixtiyarındadır.

Böyük Aşıq Şakirin, dahi xanəndə Eynulla Cəbrayılovun, məşhur balabançı Həsrət Hüseynovun ruhu gəzən mədəniyyət evlərini, klubları aşıq poeziyasının veteranı, saz və söz ustası, respublikanın Əməkdar Mədəniyyət işçisi Aşıq Əhməd Rüstəmovla gəzdik. Onun təcrübəsi karımıza gəldi. Kəndlərin mədəni mərkəzləri sayılan bu binalara yeni ruh, yeni nəfəs gəldi. Bədii özfəaliyyət kollektivlərinin, dərnək və digər klub yardımlarının işində dönüş yarandı. Bu günlərdə 85 yaşını adlamış Aşıq Əhmədin şagirdi Əhməd Mustafayev böyük ustadının ümidlərini doğrultdu. 2005-ci ildə gənc aşıqların respublika müsabiqəsində fərqlənərək gənc aşıq 2006-cı ildə daha böyük uğur qazandı. O, gənc aşıqlar içərisində fərqlənən mükafata layiq III yeri tutdu. Aşıq Əhliman demişkən: "Ustad ocağından bir şəyird də uçdu".

Rayon tədbirlərinin canı və yaraşığı hesab edilən Köhünlü kənd mədəniyyət evinin " Bahar", Carlı kənd klubunun "Haxışta" folklor qrupları öz yaradıcı qüvvələrini cəlb edərək, repertuarlarını yeni mahnı və rəqsləri ilə zənginləşdirdilər. Rayon mədəniyyət evini elmi mərkəzə çevirərək, peşəkar aktyor Akif Mirzəyevi rəhbərliyə gətirdim. Aylarla səs-səmir gəlməyən səhnə








gözəl ifaçıların nəfəsini duydu. Səfalı Əliyev, Nəcib Mənsimov, Oktay Şükürov, Natiq Mədətov, Nəsrullah Məmmədov, Hüseynqulu Hüseynov, Maşallah Nəbiyev, Arif Qarayev, Arif Haqverdiyev, İlham Həsənov, Zamiq Kərimov, gənc aşıq Əhməd Mustafayev və adını çəkmədiyimiz onlarla başqaları rayon mədəniyyət evində sıx birləşdilər. Xalq şənliklərinin, el mərasimlərinin, yaraşığı olan bu musiqiçilər rayonun və respublikanın mədəni tədbirlərində öz sözlərini dedilər. Vətən sevgilərini cəbhə bölgələrində, hərbi hissələrdə verdiyimiz konsertlərdə əsgər oğullarla bölüşdülər. Rayon mədəniyyət evində fəaliyyət göstərən "Kür", "Nur", "Seymur" və başqa kollektivlərlə yanaşı Xırdapay kənd mədəniyyət evinin "Xırdapay" ansamblı böyük tamaşaçı rəğbəti qazandı. Uzun illər mədəniyyət sahəsində işləyənlər İslam Bağırov, Şahalı Şıxəliyev, Altay İslamzadə, Davud Ələkbərov, Nanəgül Həmidova, Şəfiqə Məmmədova, Cəlil Kərimov, Rafizə Məmmədova, İradə Mahmudova, İlqar Muradov, Azər Gərayev, Dürriyə Seyidova və başqaları öz təcrübələri ilə gənclərə nümunə oldular, yol göstərdilər.

Ən ağrılı yerimiz hesab olunan abunə kompaniyasında irəliləyiş oldu. Çalışdıq ki, "Mədəniyyət" qəzeti ilə, "Mədəni-maarif" jurnalı ilə, "Yaddaş" və "Kino+ " qəzetləri ilə sıx əlaqə yaradaq, digər dövrü mətbuata abunə yazılışına nail olaq. Artıq bu gün bu sahədə də uğurlarımız var. Düzü, bu bizi qane etmir. Çalışırıq ki, sahə mətbuatına hər bir işçimiz abunə yazılsın. Yəqin ki, o gün də uzaqda deyil.

Bu gün təmir – tikinti işlərinin xəritəsində kənd mədəni – maarif müəssisələri çoxluq təşkil edir. Son iki ildə büdcə vəsaiti hesabına Köhünlü kənd və Qarabucaq qəsəbə mədəniyyət evləri, Qocalı kənd kitabxanası, Topalhəsənli kənd kitabxanası, dördyol ərazisində yerləşən şəhər kitabxanası, Şüşün kənd kitabxanası, Qarabucaq qəsəbə kitabxanası və kitabxananın oxu zalı cari təmir olunmuş, Xəlsə kənd kitabxanasında əsaslı yenidənqurma işləri aparılmışdır.

Kənd bələdiyyələri ilə qurulmuş işgüzar əlaqələr nəticəsində kəndlərdə olan digər mədəni – maarif müəssisələri də bələdiyyə vəsaiti hesabına cari təmir olunmuşdur.

İllərin kir-pasını özündə gəzdirən, Böyük Vətən müharibəsi illərində qospital binası olmuş yastı-yapalaq binada yerləşən Kürdəmir Tarix-diyarşünaslıq muzeyinin işıqlı baxtı "açıldı". Binada əsaslı yenidənqurma işləri aparıldı, Mədəniyyət Nazirliyi tərtibat üçün vəsait və mütəxəssis ayırdı. İndi bizim müasir muzeyimiz var.

Az vaxt ərzində "Qələbə – 60" park kompleksi yaradıldı. Ərazidə həmyerlimiz, Sovet İttifaqı Qəhrəmanı Məmiş Abdullayevin büstü qoyuldu. "20 yanvar" xatirə - kompleksi isə tarixi faciənin kədər və ağrısını insanlara daim xatırladan bir sənət nümunəsi olaraq "20 yanvar" bağında ucaldıldı.

2005-ci il oktyabr ayının 6-da Möhtərəm Prezidentimizin rayonumuza tarixi səfəri zamanı rəsmi açılışı olan "Heydər Əliyev muzeyi" öz unikallığı və zənginliyi ilə çoxlarını heyran qoydu. Mədəniyyətimizin dostu və cəfakeşi, millət vəkili Mehriban xanım Əliyeva da təntənəli mərasimdə iştirak etdi.

Muzeyin təntənəli açılışından sonra muzeylə tanış olan ölkə rəhbəri muzeyin xatirə kitabına öz qiymətli fikirlərini yazdı: ***"Heydər Əliyev muzeyinin ekspozisiyası Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirir. Muzey müasir üslubda tikilib, gözəl memarlıq və dizaynla fərqlənir.***

***Müasir Azərbaycanın qurucusu Heydər Əliyevin siyasi kursu bu gün də davam edir. Azərbaycanın uğurlu və hərtərəfli inkişafı üçün bu siyasət əbədi yaşamalıdır.***

***Bütün kürdəmirlilərə öz hörmət və məhəbbətimi ifadə edirəm.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti.***
***Kürdəmir, 6.10.2005"***

Bu gün muzey və onun yerləşdiyi "Heydər parkı"nın ərazisi kürdəmirlilərin istirahət yeri, parkda ucalan Ulu Öndərin möhtəşəm abidəsi isə and və ziyarət yerləridir. Hər gün yüzlərlə insanlar buraya axışır, dahi şəxsiyyətə öz inam və məhəbbətini nümayiş etdirirlər.

Rayon mərkəzində tikilmiş "Gənc Heydərçilər parkı" isə uzun illər baxımsız bir sahənin gülüstana çevrilməsinə səbəb oldu. Uşaq və yeniyetmələrin istirahətinin təşkilində əhəmiyyətli iş görən bu parkda – Kürdəmir Dövlət Rəsm Qalereyası, rayon uşaq kitabxanası, Kürdəmir Mərkəzləşdirilmiş Kitabxanalar Sistemi, Kürdəmir Uşaq Yaradıcılıq Mərkəzi kimi vacib obyektlər yerləşir. Əvvəllər gözdən-könüldən uzaq olan bu müəssisələrdə indi həyat qaynayır. Gəlişli-gedişli olub bu xidmət mərkəzləri. Heç təsadüfi deyil ki, qısa vaxt ərzində parkın ərazisində yerləşən kitabxanalarda iki, Kürdəmir Uşaq Yaradıcılıq Mərkəzində isə bir informasiya mərkəzi yaradıldı. Müasir kompüter avadanlıqları, çap qurğuları və digər vasitələrlə təmin olunmuş bu mərkəzlər İNTERNET şəbəkəsinə qoşulmuş və onlardan istifadə pulsuzdur. Kürdəmir MKS-də yerləşən informasiya mərkəzinin işi isə günün tələbləri səviyyəsindədir. İndi tələbkar oxucular yeni informasiyalar əldə etmək, dünya ilə əlaqə saxlamaq üçün bizim kitabxanalarda olan informasiya mərkəzlərinə müraciət edir, pulsuz kurslarda kompüter texnikasının sirlərini və xarici dilləri həvəslə öyrənirlər.

Daimi yaradıcılıq axtarışında olan, insanları bir araya gətirən yeni bir qurum-Mədəniyyət və Turizm Nazirliyi yarandı. Qeyri-maddi sərvətlərimizin və tarixi abidələrimizin sahibi olan bu yeni dövlət strukturu hər bölgədə öz işini yenidən qurdu. İstedadların axtarışı, abidələrin bərpası və qorunması, az qala hər cığırı bir tarix olan yurd yerlərimiz diqqətlə araşdırıldı. Yeni imkanlar, yeni perspektivlər açıldı.

2006-cı ili uğurla başa vuran mədəniyyət və turizm işçiləri 2007<ci ilin0birinci1ayının tamamında bir yahlarını aeyd etdilər. Bis illik xesabatdp görülmüş işlərö nəzər balındı,1problemlər çözüldü. Mədÿniyyət və Turizm Naziri}iz, çox1hörmətli Əbülfəs Qarayevin rəhbərliyi ilə böyük layihələrə, böyçk uğurlara imza atdıq .

Bu gün nəhəng bir Proqramın "2006 - 2016 – cı illər üçün mədəniyyət üzrə Dövlət İnkişaf Konsepsiyasının" müddəalarının reallaşması istiqamətində işləyirik.

Hər şey təzələnib, adamlarda yeni ruh, yeni nəfəs var. Ölkə rəhbərinin qayğısı nəticəsində insanların maddi durumu günü-gündən yaxşılaşır. Əmək haqqlarımız, təminatlarımız yaxşılaşır. Regionlarda gedən sürətli sosial-iqtisadi inkişaf mədəniyyətimizdən də yan keçməyib. Yeni tikilən muzeylər, parklar, kitabxanalar, əsaslı yenidənqurmadan sonra öz simasını və xidmət səviyyəsini büsbütün dəyişən mədəniyyət evləri, klublar mədəniyyətə dövlət qayğısından xəbər verir. Bütün bunlara görə biz Möhtərəm Prezidentimiz İlham Əliyevə minnətdarıq.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin tələbkarlığı yerlərə də sirayət etdi. Tarixi abidələrə, mədəni dəyərlərə münasibət kökündən dəyişdi. Tarixi abidələrin yerləşdiyi ərazilərə diqqət və qayğı artdı. Yerli icra strukturları ilə qurulan işgüzar əlaqələr, vətəndaşlarla aparılan maarifləndirmə və izahat işləri öz bəhrəsini verdi. Adamların tarixi abidələrə vətəndaş sevgisi "göründü". Hamı tarixi abidələrin qorunmasında iştirak etməyə çalışdı.

İllərin yükünü öz çiyinlərində çəkən, dahi bəstəkar, ölməz korifey Qara Qarayevin şəxsi köməkliyi və təşəbbüsü ilə yaradılmış, bu günlərdə yaranmasının 40 ili tamam olan Kürdəmir Uşaq İncəsənət Məktəbinin binası təmir olundu, daxili imkanlar hesabına yeni məşğələ otaqları yaradıldı.

Məktəbin inventar və avadanlıqlarla təchizatı yaxşılaşdırıldı, səsucaldan cihazlar, musiqi alətləri alındı. Müəllim və şagirdlərin çöhrəsində işıq, nur göründü.

Bütün saydıqlarımız Azərbaycan dövlətinin vəsaiti, Azərbaycan Prezidentinin qayğısı və məhəbbəti hesabına hasil oldu.

Bizə - sadə vətəndaşlara isə qalır işə can yandırmaq. Odur ki, hərdən insan bir az düşünməli, özünə hesabat verməlidir.

***... Görüləsi işlərimiz, həyata keçiriləsi layihələrimiz isə çoxdur. Mədəniyyət sahəsində başlanmış islahatları həyata keçirmək üçün hər birimiz özümüzdə güc, qüvvət tapmalıyıq.***





